# MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN BANİSİ

*Görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini, tarixini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər.*

**Heydər ƏLİYEV,**
**Ümummilli Lider.**

**Müstəqil Azərbaycan Respublikasının qurucusu və banisi Heydər Əliyevin anadan olmasının 100 illiyinin böyük qürur hissilə qeyd edilməsi, xalqımızın şərəfli tarixində böyük əhəmiyyətə malik olan mühüm hadisədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2023-cü il "Heydər Əliyev İli" elan edilmişdir. Sərəncamda deyildiyi kimi, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyev Azərbaycan xalqını müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Müstəqil Azərbaycan Ulu Öndərin şah əseridir.**

Azərbaycan xalqı özünütəsdiq edib bəşər sivilizasiyasının, xüsusilə Şərq və türk dünyasının mədəniyyət mərkəzinə çevrildiyi vaxtdan çağdaş dövrümüzə qədər qüvvətli dövlətlər və bu dövlətləri idarə edə bilən görkəmli dövlət xadimləri yetirmişdir. XX-XXI əsrlərin qovuşuğunda Heydər Əliyevin zəngin ictimai-siyasi və dövlət xadimi kimi fəaliyyəti buna ən parlaq misaldır. Azərbaycan gerçəkliyinin, Azərbaycan zəkası və mənliyinin müasir reallıqları məhz Ulu Öndər Heydər Əliyevin geniş və hərtərəfli fəaliyyətində aydın şəkildə öz əksini tapır.

2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Prezident Sərəncamında deyilir: "Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir".

Heydər Əliyevin hərtərəfli fəaliyyəti və bacarığı müstəqil Azərbaycanın inkişafında, uğurlu daxili və xarici nailiyyətlərin qazanılmasında həyata keçirilən tədbirlər onu xalqımızın Ümummilli Lideri səviyyəsinə yüksəldə bilmiş, adına və mənalı ömür yoluna şərəf gətirmişdir.

Heydər Əliyev müasir tariximizdə inkişaf edən Azərbaycanın qüdrətli dövlət rəhbəri, müstəqilliyimizin qorunması, dövlətimizin möhkəmləndirilməsinin etibarlı qarantı və memarıdır. Onun yaratdığı yeni-yeni dövlət strukturları, həyata keçirdiyi köklü islahatlar və cəsarətli dövlət tədbirləri Azərbaycanın getdikcə qüvvətlənməsinə istiqamətlənən prioritet vəzifələr idi.

Heydər Əliyev xalqımızın tarixini yaşadan görkəmli dövlət xadimi və dahi rəhbəri idi. Ulu Öndər bizim tarixi yaddaşımızı özümüzə qaytardı.

Hələ Azərbaycana birinci rəhbərliyi dövründə, ötən əsrin 70-ci illərində xalqımızın milli-mənəvi dəyərlərinin qorunması və daha da inkişaf etdirilməsi istiqamətində ciddi və əhəmiyyətli addımlar atıldı, gələcək müstəqilliyə doğru azadlıq ideyaları bir ideoloji baxış sistemi kimi genişlənməyə başladı. 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Prezident Sərəncamında deyildiyi kimi, "azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı 70-ci illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir". Ulu Öndərin həyata keçirdiyi tədbirlər milli ruhun canlanmasına, soykökümüzə, milli özünüdərkə qayıdışa doğru qətiyyətli addımlar idi. 1978-ci ildə Konstitusiya qəbul edilərkən Azərbaycan dilinin Konstitusiya statusu alması o zaman üçün böyük tarixi hadisə və Heydər Əliyevin böyük cəsarəti idi.

1969-cu ildə Azərbaycanın rəhbəri seçildikdən sonra rəsmi Moskvanın diqqətini cəlb etmədən respublikada milli-mənəvi dəyərləri inkişaf etdirmək üçün müdrik addımlar atmağa başladı. Azərbaycan SSR Ali Soveti 1938-ci il mayın 7-də Laçın, Kəlbəcər, Qubadlı və Qazax bölgələrindən 2 min hektar torpaq sahəsinin Ermənistana verilməsi haqqında protokolu təsdiq etdi. Lakin az sonra hakimiyyətə gəlmiş Heydər Əliyev bu qərarın icrasına yol vermədi.

Heydər Əliyev böyük uzaqgörənliklə respublikanın bütün dövlət hakimiyyəti orqanlarının, Azərbaycan parlamentinin fəaliyyətini xalqın sosial-iqtisadi və sosial-mədəni tərəqqisi, habelə milli oyanış siyasətinin reallaşmasına yönəltdi. Geniş rəhbərlik təşkilatçılığı və istedadlı bacarığı ilə həm Azərbaycanın partiya rəhbəri və həm də SSRİ Ali Sovetinin deputatı (VIII-IX çağırışlar) və İttifaq Sovetinin sədr müavini, Azərbaycan SSR Ali Sovetinin deputatı və Rəyasət Heyətinin üzvü kimi geniş dövlətçilik fəaliyyəti göstərirdi. Onun təşəbbüsü ilə SSRİ rəhbərliyi, yəni Sov. İKP MK və SSRİ Nazirlər Soveti Azərbaycanın iqtisadi inkişafı üçün olduqca böyük əhəmiyyətə malik olan 5 mühüm qərar qəbul etmişdi. Onların hər biri Azərbaycanın xalq təsərrüfatının inkişafına İttifaq fondundan külli miqdarda vəsait ayrılması ilə bağlı idi. Heydər Əliyevin həyata keçirdiyi kadr siyasəti bütün sahələrdə olduğu kimi, qanunvericilik orqanlarında da milli dövlətçilik siyasətinin həyata keçirilməsinə yönəldildi və bu orqanlara milli kadrların cəlb edilməsi artdı.

Heydər Əliyev həmin illərdə respublikada dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində qanunçuluğun hüquqi bazasının möhkəmləndirilməsi sahəsində mühüm dövlət tədbirlərinin təşəbbüsçüsü oldu.

Heydər Əliyev XX-XXI əsrin qovşağında Azərbaycan reallıqlarında müasir dünyanın ən qüdrətli dövlət xadimlərindən biri, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmləndirilməsinin banisi, inkişaf etməkdə olan dövlətimizin qurucusu və memarıdır. Onun qurub-yaratdığı və həyata keçirdiyi böyük dövlət tədbirləri təkcə Azərbaycanda deyil, dünyada mühüm bir hadisə kimi görünür. O, ən adi və vacib məsələləri və respublikada həyata keçirilməsi zəruri olan dövlət vəzifələrini qlobal səviyyəyə qaldırmağı, onu özünün də iqtisadi-siyasi fəaliyyətinin başlıca vəzifəsi kimi qiymətləndirməyi, bu vəzifələrə ən yüksək fəaliyyət zirvəsindən baxmağı bacaran qüdrətli dövlət başçısı idi. O, qarşıya qoyduğu bütün dövlət vəzifələrinin mahiyyətini və fəlsəfəsini görür və uzaqgörənliklə həmin vəzifələrin həlli yollarının konkret istiqamətlərini də müəyyən edirdi. Onun rəhbərliyi ilə həyata keçirilən bir çox quruculuq vəzifələri bəzən region və hətta ümumdünya məsələsi kimi götürülür, həlli yolları da göstərilirdi. Buna görə də Heydər Əliyev yalnız öz ölkəsində deyil, bütün dünyada maraqla qarşılanır, dünyanın dövlət başçıları tərəfindən böyük hörmət və ehtiramla, yüksək səviyyədə qəbul edilirdi.

Prezident Sərəncamında deyilir: "Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur".

Çalışdığı və işlədiyi bütün yüksək vəzifələrdə, beynəlxalq görüşlərdə o, ilk növbədə Azərbaycanın, Azərbaycan xalqının mənafeyini, milli-mənəvi dəyərləri qorumağı əsas vəzifə bilirdi. Bir Vətən övladı kimi əsl azərbaycanlı idi və bununla da fəxr edirdi. Dahi şəxsiyyət, böyük siyasətçi, uzaqgörən diplomat, yüksək zəka sahibi olan Ulu Öndərin hikmətlə dolu zəngin həyat təcrübəsi var idi.

Azərbaycan xalqına etdiyi müraciətdə Heydər Əliyev demişdi: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib". Bəli, Ulu Öndər doğma xalqına arxalandığı kimi, Azərbaycan xalqı da dahi rəhbərin geniş və hərtərəfli fəaliyyəti sayəsində güclü və müstəqil dövlətin inkişafına nail oldu.

Heydər Əliyev müstəqil Azərbaycanın inkişaf strategiyasının elmi cəhətdən əsaslandırılmış yeni strukturlarını yaratdı və onları da zamanın ruhuna və tarixi şəraitə uyğun olaraq təkmilləşdirməyi təmin etdi. Bununla da Heydər Əliyev milli inkişaf strategiyasının yeni modelini yaratdı və modern dövlət kimi Azərbaycan yeni inkişaf dövrünə qədəm qoydu.

Qeyd etmək lazımdır ki, Heydər Əliyevin yaratdığı dövlət strukturları nə qədər bəşəri məzmun daşısa belə, Azərbaycanın milli xarakterini və xüsusiyyətlərini həmişə ön planda meydana çıxarmışdır. Heydər Əliyev həmvətənlərinin və soydaşlarımızın milli ruhunu, müdrikliyini, gözəlliyini, rəşadətini və qəhrəmanlığını dönə-dönə qeyd edərək onları ümumbəşəri ideyalar səviyyəsinə yüksəltmişdir.

Heydər Əliyevin Azərbaycana rəhbərliyi ilə xalqımızın çağdaş tarixində yeni bir məktəbin əsası qoyuldu. Hələ 70-ci illərdə inkişaf etməkdə olan Azərbaycan 90-cı illərin ortalarından başlayaraq daha da inkişaf etdi, Heydər Əliyevin Azərbaycana Böyük Siyasətə qayıdışı Allah dərgahında böyük qurtuluş və uğurdur. Bu qayıdış ilə Azərbaycanın müstəqilliyi qorundu və xalqımıza böyük bir zəfər bəxş edildi.

Heydər Əliyevin ictimai-siyasi və dövlətçilik fəaliyyəti, onun proqram xarakterli çıxışları, nitq və məruzələri çağdaş tariximizin sistemli-müqayisəli formada öyrənmək baxımından tarixi mənbədir. Hər bir çıxışın və məruzənin spesifik paleoqrafiyası, xüsusiyyətləri və dəyəri, özünəməxsus cəhətləri vardır.

Çağdaş tariximizin ictimai-siyasi və dövlətçilik tarixinin varislik əlaqəsi baxımından araşdırılması bir daha onu sübut edir ki, müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində bir çox yarımçıq qalmış problemlər Prezident İlham Əliyev tərəfindən uğurla həll edilmiş, Heydər Əliyev tərəfindən bünövrəsi qoyulmuş köklü islahatlar kursu qətiyyətlə davam etdirilmişdir. Müstəqil Azərbaycanın daxili və xarici siyasət kursunda qazanılmış fundamental uğurlar dediklərimizə sanballı arqumentdir.

Heydər Əliyevin rəhbərliyi ilə daxili və xarici siyasətdə qazanılan fundamental nailiyyətlər sayəsində müstəqil Azərbaycanın sosial-iqtisadi, siyasi, hərbi, mənəvi-mədəni inkişafında böyük uğurlara nail olunmuşdur. Ancaq bu uğurlarla kifayətlənməyib, onu daha da inkişaf etdirmək, beynəlxalq münasibətlər sistemində daha sanballı nailiyyətlər qazanmaq Heydər Əliyevin universal fəaliyyətinin, onun arzu və ideyalarının başlıca məqsəd və mahiyyətini təşkil edirdi. Azərbaycan xalqına tarixi müraciətində (1 oktyabr 2003-cü il) Ulu Öndər demişdir: "Mən öz mənalı həyatımın düz 60 ilini xalqımın bu günü və sabahı ilə yaşamışam..., Azərbaycan xalqına və Azərbaycan dövlətinə xidmət etmişəm... Lakin mənim hələ tamamlanmamış çox perspektivli planlarım var. Son vaxtlar səhhətimdə yaranan bəzi problemlər mənə imkan vermir ki, bu işləri tamamlayım... İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları xalqımızın köməyi və dəstəyi ilə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bəli, bu tarixi müraciət bütün Azərbaycan xalqına düzgün seçim etməyə imkan verdi. Xalqımız düzgün seçim etdi, İlham Əliyev prezident seçildi. Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan daxili və xarici siyasətdə sanballı uğurlar qazandı, ölkəmiz sosial-iqtisadi və hərbi cəhətdən güclü inkişaf etdi və lider dövlətə çevrildi, qüvvətli təməl ilə daha da gücləndi. Məhz Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə düşmən üzərində tarixi Qələbə qazanıldı, 30 illik işğala son qoyuldu. Bununla da İlham Əliyev həm xalqımızın arzusunu, həm də ATA vəsiyyətini yerinə yetirdi.

Heydər Əliyev ideyaları, müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində onun qətiyyətli mövqeyi və polad iradəsi xalqımızın tarixə və tariximizin də xalqa verdiyi bir ibrət dərsidir ki, bu mövqe hamı tərəfindən qəbul və təsdiq edilən həqiqət konsepsiyasıdır. Çünki müstəqilliyimizə edilən qəsdlərin qarşısının alınması, ilk illərdə "olum və ya ölüm" qarşısında qalan müstəqilliyimizin qorunması, daxili və xarici düşmənlər tərəfindən dövlətçiliyimizə və dövlətimizə edilən qəsdlərin qarşısının alınması, xilas edilməsi və nəhayət, hüquqi, demokratik və dünyəvi dövlətin qurulması sahəsində həyata keçirilən prinsipial tədbirlər məhz Heydər Əliyevin misilsiz xidmətləridir. Açıq demək lazımdır ki, itirilməkdə olan müstəqil dövlətimizi qorumaq və onu müdafiə etmək üçün Heydər Əliyevin bir çağırışı milyon-milyon insanın şüuruna hakim kəsildi. Bütün Azərbaycan xalqı ayağa durdu, dövlətçiliyimizi qorumağa səs verdi, "Heydər-xalq", "xalq-Heydər" şüarları ilə dövlət başçısı, Prezident Heydər Əliyevin ətrafında monolit bir yumruq kimi birləşdi. Beləliklə, məhz Heydər Əliyevin əvəzsiz xidmətləri və qətiyyətli fəaliyyəti sayəsində müstəqilliyimiz qorundu. Ölkədə sakitlik və sabitlik yarandı, hüquqi və demokratik islahatlar həyata keçirildi, xalqın sosial-iqtisadi vəziyyəti yaxşılaşdı, qlobal əhəmiyyətli beynəlxalq layihələrə imza atıldı, Heydər Əliyev müstəqilliyimizin qarantı, qurucusu və memarı oldu.

Prezident İlham Əliyev demişdir: "Heydər Əliyevin cəsarəti, zəkası, təcrübəsi, xalqın ona olan inamı ölkəmizi çətin vəziyyətdən çıxardı". Cənab Prezidentin dediyi kimi, 1993-2003-cü illərdə dövlətçiliyimizin çox möhkəm əsasları qoyuldu. Bu illəri sabitlik və inkişaf illəri kimi xarakterizə etmək olar. Qısa müddətdə Azərbaycan inkişaf edən dünya dövlətləri bərabərliyinə yüksələ bildi. 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Prezident Sərəncamında deyildiyi kimi, "Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin dünyaya tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır".

Xalqımızın və tariximizi müdriklik zəkasından qaynaqlanan Heydər Əliyev ideyaları dövlətçilik və azərbaycançılıq prinsiplərini ifadə edərək milli mentalitetimizin bütün atributlarını və prioritet məsələlərini əhatə edir.

Qurani-Kərimdə deyildiyi kimi, göylərdə və yerdə nə varsa hamısı Allaha məxsusdur, bütün mövcudat Allahın qüdrətindən yaranmış əsərdir (surə 22, ayə 64). Eləcə də Azərbaycanın düşmüş olduğu bəlalardan xilas edilməsi, Azərbaycanın müstəqilliyinin qorunması, bazar iqtisadiyyatına doğru köklü islahatların aparılması, tarixən qısa müddətdə hüquqi, demokratik və dünyəvi dövlətin yaradılması istiqamətində inkişaf strategiyasının həyata keçirilməsi, daxili və xarici siyasətdə beynəlxalq uğurların qazanılması ancaq və ancaq Heydər Əliyevə məxsusdur. Bütün bu deyilənlər açıq-aşkar görünür və hamısı da Azərbaycan reallıqlarında faktlarla təsdiqlənir. Bütün bu fundamental inkişaf nailiyyətlərini görərək qiymətləndirmək hər kəsin müqəddəs vəzifəsidir.

Prezident kimi geniş fəaliyyətə başladığı ilk gündən Heydər Əliyev müstəqilliyimizin qorunması və möhkəmlənməsi istiqamətində fundamental tədbirlər həyata keçirdi, ölkəmizin daxili və xarici siyasət proqramının hazırlanması və praktik olaraq reallaşması sahəsində mühüm dövlət qərarları verildi. Azərbaycan xalqına müraciətində Heydər Əliyev həmin vəzifələri konkret olaraq aşağıdakı kimi qeyd etmişdi:

İlk növbədə dövlətçiliyimizin əsasını təşkil edən ictimai-siyasi sabitliyə nail olmuş, milli birliyin və vətəndaş cəmiyyətinin təməli qoyulmuşdur.



İkincisi, ölkəmizin iqtisadiyyatı yenidən qurulmuş və inkişaf etdirilmişdir.

Üçüncüsü, Azərbaycan xalqının istək və arzularının iradəsi olan güclü, demokratik dövlətimiz qurulmuş, onun müstəqilliyi təmin edilmişdir.

Müstəqilliyimizin ilk illərində Azərbaycanda aclıq, qıtlıq yarandı, torpaqlarımız yağı düşmən tərəfindən işğal edildi, sosial-iqtisadi, hərbi-siyasi və hakimiyyət böhranı yarandı, xalq ağır duruma düşdü, "olum, ya ölüm" dilemması qarşısında qaldı, dərin böhran yarandı, hətta vətəndaş qarşıdurması mövcud vəziyyəti daha da ağırlaşdırdı, müstəqilliyin itirilməsi təhlükəsi yarandı. Belə bir çətin vaxtda xalqın təkidli xahişi ilə Heydər Əliyev xilaskar kimi yenidən böyük siyasətə qayıtdı və Azərbaycanı bütün bəlalardan xilas etdi, müstəqilliyimiz qorundu, sabitlik yarandı, dövlətimiz gücləndi, xalqımızın firavan həyatı bərpa olundu.

Heydər Əliyev Azərbaycan xalqının xilaskar rəhbəri, xalqımızı mövcud bəlalardan xilas edə bilən, qısa zaman kəsiyində Azərbaycanın inkişafına nail ola bilən qüdrətli bir dövlət xadimidir.

Heydər Əliyev müasir tariximiz üçün müstəsna dərəcədə böyük əhəmiyyətə malik olan dahiyanə bir əsər yadigar qoymuşdur. Bu əsər, özünün də dəfələrlə dediyi kimi, "Azərbaycan" adlı müqəddəs bir əsərdir, müstəqil və qüdrətli Azərbaycan Respublikasıdır. Xalqımızın dil əzbərinə çevrilmiş "nə qədər ki, Azərbaycan var, mən varam, Azərbaycan mənim ürəyimdir, nəfəsimdir, canımdır" kimi sözlər məhz Heydər Əliyevə məxsusdur, ilk dəfə onun dilindən səslənmişdir.

Milli-mənəvi irsimizə, vətən tariximizə, dövlətçiliyimizə və azərbaycançılıq məfkurəsinə bağlılıq Heydər Əliyevin ruhundan və əqidəsindən qidalanırdı. O, həyatı, ürəyi ilə öz xalqının mənəvi köklərinə bağlı olan parlaq bir şəxsiyyət, dahi dövlət xadimi idi. Özünün dediyi kimi, ömrünü və həyatını xalqına həsr etmişdi. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş, azərbaycanlı olması ilə fəxr etmişdi.

"Canım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır" deyən Heydər Əliyev azərbaycançılıq və dövlətçilik fəlsəfəsini inkişaf etdirərək doğma xalqını vahid bir milli ideologiya ətrafında birləşdirməyi bacaran dahi rəhbər və qüdrətli dövlət başçısı idi. Heydər Əliyev milli tariximizdə ilk dəfə idi ki, həm azərbaycançılıq və həm də dövlətçilik anlayışına aydınlıq gətirdi, onların mahiyyətini, məqsəd və prinsiplərini ətraflı izah etdi. Qeyd etdi ki, azərbaycançılıq əsasən dövlətçilik və milli vətənpərvərlikdən ibarətdir. Heydər Əliyev demişdir: "Dövlətçilik, milli-mənəvi dəyərlər, ümumbəşəri dəyərlər - bunlar hamısı azərbaycançılıq anlayışlarının tərkib hissələridir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaq və möhkəmləndirməkdir". Dərindən düşünəndə aydın görünür ki, Ulu Öndər milli ideologiyamızın bütöv bir sistem halında yeni konsepsiyasını yaratmış, doğma xalqımızın möhkəm birliyinin əsaslarını müəyyənləşdirmiş, bununla da milli-mənəvi dəyərlərin inkişafına dair yeni bir məktəbin təməlini qoymuşdur. Bu baxımdan Azərbaycan dövlətçiliyi naminə dahi rəhbərin müəyyən etdiyi və həyata keçirdiyi milli konsepsiya onun tarixi xidmətlərindən biridir.

Milli birliyi, milli kökləri və milli həmrəyliyi vacib bilən Ulu Öndər dönə-dönə qeyd edirdi ki, "bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır".

Beləliklə, Heydər Əliyevin dediyi kimi, bu gün bizim hamımızı birləşdirən, həmrəy edən dövlətçilikdir, azərbaycançılıqdır, milli-mənəvi dəyərlərimizdir.

Heydər Əliyev geniş ictimai-siyasi fəaliyyəti və zəngin ömür yolu ilə Azərbaycan xalqının şərəfli tarixində, ədalətli mövqeyi ilə bütün dünyada ad-san qazanmışdı. Heydər Əliyevin hərtərəfli fəaliyyətinin başlıca xüsusiyyətlərindən biri doğma Vətən torpağı ilə, onun tarixi, mədəniyyəti, adət-ənənələri, milli mentaliteti və milli-mənəvi dəyərləri ilə qırılmaz tellərlə bağlılığıdır.

Bəşər tarixində görkəmli şəxsiyyətlər və qüdrətli dövlət başçıları olmuşdur. Belə görkəmli şəxsiyyətlər eyni zamanda dünya siyasətinə və beynəlxalq münasibətlər məsələlərinə də təsir göstərirlər. Tanınmış şəxsiyyətlər dünya tarixinin zəkasını ifadə edirlər. Əslində həmin şəxsiyyətlər xalqın ictimai-siyasi həyatında qüdrətli təsir vasitəsinə çevrilir, beləliklə, xalqın həm siyasi xadimi və həm də mənəvi rəhbəri olurlar. Tarixin inkişaf dinamikası göstərir ki, hər bir xalqın və cəmiyyətin inkişafında hərəkətverici qüvvələri onun öz daxilindədir, eyni zamanda obyektiv və subyektiv amillərlə vəhdət təşkil edir. Məhz bu amilləri dərindən elmi və nəzəri cəhətdən təhlil edib, ictimai praktikada onu tətbiq etmək siyasi rəhbərin bacarığından daha çox asılıdır. Siyasi rəhbər mənəvi istedada, fövqəltəbii bacarığa, intellektual və zəngin biliyə malik olmaqla yanaşı, yaranmış ictimai-siyasi tarixi şəraiti diqqətlə təhlil edib, cəmiyyətin gələcək inkişaf strategiyasının istiqamətlərini müəyyənləşdirməlidir.

Görkəmli şəxsiyyətlər tarixin onun qarşısına qoyduğu proqram vəzifələri necə və hansı şəraitdə yerinə yetirməyi, birinci və ikinci dərəcəli vəzifələri müəyyənləşdirməyi əsas götürməli, ən çətin vəziyyətdə sərrast və aydın fikir yürütməli, elmi cəhətdən əsaslandırılmış proqramla, xalq ilə birlikdə hərəkət etməli və fəaliyyət göstərməlidir. Belə tarixi şəxsiyyətlər Allah vergisi, Tanrı istedadıdır. Xalqın arzu və istəklərini, onun iradəsini ifadə edən belə tarixi şəxsiyyətlər ümumxalq sevgisi qazanaraq Ümummilli Liderə çevrilir, xalqın siyasi və mənəvi rəhbəri olur, milyon-milyon insanların ürəyində özünə əbədi məhəbbət qazanır, heykəl ucaldır. Çağdaş tariximizdə ümumxalq sevgisi və məhəbbəti qazanan məhz Ulu Öndər Heydər Əliyev şəxsiyyətidir.

Heydər Əliyev bütün dünyada tanınan və dünya ölkələrinin rəhbərləri tərəfindən yüksək qiymətləndirilən, ümumdünya əhəmiyyətli bəşəri şəxsiyyət və dahi rəhbərdir. Heydər Əliyevin diplomatik məharəti, vətəndaş cəsarəti, siyasi hazırlığı, müdrik rəhbərliyi, rəhbərlik qətiyyəti, prinsipial mövqeyi, uzaqgörən siyasəti, diplomatik təcrübəsi, polad iradəsi, prezident məsuliyyəti və digər yüksək rəhbərlik keyfiyyətləri müstəqil Azərbaycanın qorunmasında, inkişaf etməsində və möhkəmlənməsində müstəsna dərəcədə böyük rol oynamışdır. Bu gün müstəqil Azərbaycanın modern inkişafında Ulu Öndərin xidmətləri çox böyükdür. Prezident İlham Əliyevin dediyi kimi, bu gün Heydər Əliyev siyasəti uğurla davam və inkişaf edir.

Heydər Əliyev öz mənalı həyatının 60 ilini xalqımızın bu günü və sabahı ilə yaşamış, ömrünü xalqımıza həsr etmişdir.

Ulu Öndərin şah əsəri olan Azərbaycan sosial-iqtisadi və hərbi cəhətdən inkişaf edən güclü dövlət və beynəlxalq münasibətlər sistemində öz mövqeyini möhkəmlədən ölkədir. Prezident Sərəncamında deyildiyi kimi, güclü Azərbaycan dövləti öz suverenliyi və müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı zəfər qazanmaqla sübuta yetirdi, 30 illik işğala son qoydu, ölkəmizin ərazi bütövlüyü təmin edildi.

Müstəqil Azərbaycan dövlətinin banisi olan Heydər Əliyev azərbaycanlı olması ilə ömür boyu fəxr etmişdir və bu gün bütün Azərbaycan xalqının qürur və iftixar mənbəyidir. Prezident İlham Əliyevin dediyi kimi, "Ulu Öndərin həyatı və fəaliyyəti bir fədakarlıq nümunəsi idi. Onun mirası bu gün müstəqil Azərbaycandır".

**Nuru MƏMMƏDOV,**
**tarix elmləri doktoru, BDU-nun professoru,**
**respublikanın Əməkdar müəllimi.**